AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN SIĞORTA ŞİRKƏTLƏRİNDƏ İDARƏETMƏ KEYFİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5311.01 – Müəssisələrin təşkili və idarə olunması

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Şəmşad Nəbi oğlu Əlizadə**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı-2022**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "İqtisadiyyatın dövlət tənzimlənməsi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Quliyev Rövşən Rasim oğlu**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Xudiyev Nizami Nəcəfqulu oğlu**

iqtisad elmləri namizədi, dosent
**Əhmədov Bağış Sabir oğlu**

iqtisad elmləri namizədi, dosent
**İsayev Kamran Hidayət oğlu**

Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.22 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın müxbir üzvü i.e.d, professor
**İmanov Qorxmaz Cahangir oğlu**

Dissertasiya şurasının elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Rüstəmov İlham Samil oğlu**

Elmi seminarın sədri: iqtisad üzrə elmlər doktoru, professor
**Səfərov Qənimət Əsəd oğlu**

İMZANI TƏSDİQ EDİRƏM
ADNSU-nun Elmi katibi
dosent N.Əliyeva

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE UNİVERSİTETİ

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Xidmət sektorunun mühüm tərkib hissəsi sayılan sığorta müasir dövrdə iqtisadiyyatda önəmli rol oynayır. Sığorta dünyanın bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrində geniş yayılmışdır. Əhalinin həyatının, sağlamlığının və o cümlədən əmlakının təminat altına alınması və qorunması baxımından sığorta müstəsna əhəmiyyət daşıyır. Sığorta həmçinin sosial həyatda da böyük rol oynayır. Belə ki, əhalinin müxtəlif sığorta xidmətlərindən istifadə etməsi onların rifah səviyyəsinin yüksəlməsinə səbəb olur. Bundan başqa sığorta ümumi daxili məhsulun artımında, iqtisadi sabitliyin, məşğulluğun və eləcə də digər makroiqtisadi göstəricilərin təmin edilməsində böyük üstünlüyə sahibdir. Bu səbəbdən iqtisadiyyatda sığortanın əhəmiyyəti danılmaz faktordur.

Sığorta fəaliyyəti Azərbaycan iqtisadiyyatında özünə xas xüsusiyyəti ilə fərqlənir. Digər inkişaf etmiş ölkələrdən fərqli olaraq Azərbaycanda sığorta yeni bir sahə hesab olunur. Bu səbəbdən o, hələ tam təkmilləşmiş bir səviyyəyə çatmamışdır. Bu gün Azərbaycanda sığorta şirkətləri tərəfindən bir çox sığorta xidmətlərinin göstərilməsinə baxmayaraq əhalinin böyük əksəriyyəti bu xidmətlərdən istifadə etmir. Bunun əsas səbəbi isə əhalinin sığortaya marağının və inamının olmamasıdır. Digər tərəfdən sığorta qanunvericiliyində olan çatışmazlıqlar da ölkədə sığorta sektorunun inkişafını çətinləşdirir.

Respublikada sığorta sektorunun inkişafının qarşısını kəsən problemlərdən biri dünyanın qabaqcıl sığorta şirkətlərinin təcrübəsindən lazımi səviyyədə istifadə edilməməsidir. Bu kimi problemlər Azərbaycanda sığorta sektorunun inkişafına ciddi şəkildə mane olur. Buna görə də sığorta sektorunun inkişafını ləngidən bu problemləri aradan qaldıraraq, ölkədə inkişaf etmiş bir sığorta sektoruna nail olmaq mühüm faktor hesab olunur.

Son dövrlər bazar iqtisadiyyatının inkişaf etməsi, iqtisadiyyatın istər sənaye, istər kənd təsərrüfatı və istərsə də xidmət sahəsində bir çox böyük və kiçik müəssisələrin yaranması və formalaşması

şirkətlərin idarə olunma effektivliyinin artırılmasının zəruriliyini ortaya qoyur. Başqa sözlə, qarşıya qoyulan məqsədə nail olmaq və məhsuldarlığı yüksəltmək üçün şirkətlərdə idarəetmə keyfiyyətinin daim təkmilləşdirilməsi zərurəti meydana çıxır. Bu baxımdan hər bir müəssisə üçün idarəetmə keyfiyyəti vacib amil hesab olunur. Digər tərəfdən idarəetmə keyfiyyətinin zəruriliyi özünü sığorta şirkətlərində də göstərir. Çünki hər bir sığorta şirkətinin uğurlu fəaliyyəti və davamlı inkişafı məhz idarəetmə keyfiyyətinin yüksək olmasından qaynaqlanır.

Məlum olduğu kimi, sığorta Azərbaycanda iqtisadiyyatın başqa sektorları ilə müqayisədə yeni bir sahədir. Məhz bu səbəbdən Azərbaycanda bu sahənin inkişafı bir sıra Avropa ölkələrinə nisbətən geri qalır. Bundan başqa ölkədə sığortanın təkmilləşmiş bir səviyyədə olmaması əhalinin sığorta xidmətlərindən istifadə etməsinə də öz mənfi təsirini göstərir. Lakin buna baxmayaraq ölkədə inkişaf etmiş sığorta sektorunun yaradılmasına hər zaman ehtiyac vardır.

Qeyd etmək vacibdir ki, sığorta xidmətlərinin yüksək səviyyədə göstərilməsi və bunun nəticəsi olaraq əhalinin razılığının təmin olunması hər bir sığorta şirkətinin başlıca məqsədidir. Bu səbəbdən Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsi bu gün aktual məsələlərdən biri sayılır. Sığorta şirkətlərində resursların effektiv şəkildə idarə edilməsi, ictimaiyyətlə əlaqələrin düzgün qurulması, marketinq fəaliyyətinin yüksəldilməsi kimi amillər idarəetmə keyfiyyətinin təkmilləşdirilməsində böyük rol oynayır. Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsinin reallaşdırılması qısa müddətdə asan məsələ deyildir. Çünki bu aktual məsələnin müasir dövrdə reallaşdırılması bir sıra şərtlərin yerinə yetirilməsinə bağlıdır. Belə ki, sığorta xidmətlərinin yüksək səviyyədə göstərilməsi, müştəri razılığının təmin olunması, əhalinin sığorta haqqında düzgün məlumatlandırılması, eləcə də dünyanın qabaqcıl sığorta şirkətlərinin sığorta təcrübəsindən istifadə edilməsi Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsi üçün zəruri sayılan tədbirlərdir. İdarəetmə keyfiyyətinin təkmilləşdirilməsi əsas



iki səbəbə görə əhəmiyyətli sayılır. Birincisi, respublikada bazar iqtisadiyyatının inkişafı ilə əlaqədar olaraq, başlıca təsərrüfat sahələrində idarəetmənin müasir forma və üsullarının tətbiq olunması, ikincisi, müəssisənin beynəlxalq bazara çıxışı və beynəlxalq iqtisadi münasibətlərin genişlənməsi üçün idarəetmə təcrübəsinin lazımi səviyyədə dərk edilməsi tələb edilir. Onsuz müəssisənin rəqabət qabiliyyətli effektiv fəaliyyəti qeyri mümkündür.

Azərbaycanda bazar münasibətlərinin inkişafı şəraitində əsas və aktual problemlərdən biri, digər xidmət sahələrinə nisbətən az inkişaf etmiş sığorta sektorunu daha da inkişaf etdirməkdən ibarətdir. Ancaq bu aktual məsələnin reallaşdırılması sığorta qanunvericiliyində olan çatışmazlıqların aradan qaldırılmasına, sığorta bazarının inkişafına təkan verəcək yeni sığorta növlərinin tətbiq edilməsinə və sığorta sahəsində bir sıra lazımi islahatların həyata keçirilməsinə bağlıdır. Qeyd olunan bu addımların atılması ilə respublikada sığorta sektorunun inkişafını reallaşdırmaq mümkün olar. Başqa bir tərəfdən ölkədəki sığorta şirkətlərinin effektiv və davamlı fəaliyyətini reallaşdırmaq məqsədilə idarəetmə keyfiyyətinin təkmilləşdirilməsi xüsusi əhəmiyyətə malikdir. Buna görə də sığorta şirkətlərində idarəetmə keyfiyyətinin nəzəri və metodoloji problemlərini işləyib hazırlamaq və həyata keçirmək qarşıda duran mühüm məsələlərdən biri hesab olunur.

Dissertasiya işində Azərbaycanda sığorta fəaliyyətinin təşkili xüsusiyyətləri, sığorta bazarının mövcud vəziyyəti, Azərbaycanın sığorta sistemində ortaya çıxan problemlər, onların aradan qaldırılması yolları və sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsi istiqamətləri kimi məsələlər xüsusilə diqqəti cəlb edir. Qeyd olunan bu məsələlər B.A.Xankişiyev, İ.M.Abbasov, İ.C.Həsənov, A.T.Məmmədov, N.N.Xudiyev, S.S.Səməndərov, L.Z.Əliyeva, N.S.Əyyubova, P.Q.Rzayev, Z.H.Rzayev, X.H.Kazımlı kimi alim və tədqiqatçılar tərəfindən tədqiq olunmuş və bu məsələlərin müxtəlif istiqamətlərinə dair elmi əsərlər nəşr edilmişdir [2, 11, 22, 23, 24, 28, 31, 32, 33].

Xarici ölkə alimlərindən N.N.Bloom, A.Mahajan, D.C.Mckenzey, S.J.Dorgan, C.C.Vilkinson, Dorofti C.A,

N.V.Komarova, V.P.Sladkeviç, A.D.Çernyavskiy, M.X.Meskon, V.V.Şaxov, L.V.Besfamilnaya, D.K.Şebzuxova, M.N.Polat, M.A.Öner, E.M. Kırkbeşoğlu tərəfindən dünyada iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən müəssisələrdə və o cümlədən sığorta şirkətlərində idarəetmənin mövcud vəziyyəti, müasir dövrdə sığorta şirkətlərinin qarşılaşdığı problemlər və onların aradan qaldırılması yolları kimi məsələlərə dair tədqiqatlar aparılmışdır [40, 42, 46, 51, 52, 54, 57, 58, 63, 65, 66, 67, 79].

**Tədqiqatın obyekti** Azərbaycanın sığorta bazarı və Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətləridir.

**Tədqiqatın predmeti** ölkədə sığorta fəaliyyəti sahəsində meydana çıxan sığorta münasibətləri və sığorta şirkətlərinin təşkilati idarəetmə mexanizmidir.

**Tədqiqatın məqsədi** sığorta problemlərinin nəzəri əsaslarının tədqiqi, sığorta sektoru və müəssisələrinin fəaliyyətinin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi əsasında Azərbaycanda sığorta şirkətlərinin idarə olunmasının təkmilləşdirilməsi istiqamətlərini müəyyən etməkdən ibarətdir.

Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- Sığorta sistemi və sığorta bazarının inkişafı sahəsində beynəlxalq təcrübənin öyrənilməsi;
- Azərbaycanın sığorta bazarının inkişaf dinamikasının təhlili;
- Yerli və xarici sığorta şirkətlərinin fəaliyyətinin və onların idarəetmə sisteminin müqayisəli təhlili;
- Azərbaycanda sığorta bazarı və sığorta şirkətlərinin fəaliyyətinin ekonometrik təhlili;
- Azərbaycanda sığorta fəaliyyətinin inkişaf perspektivlərinin müəyyən edilməsi;
- Ölkənin sığorta bazarında fəaliyyət göstərən sığorta şirkətlərinin idarəetmə sisteminin səmərəliliyinin yüksəldilməsi yollarının müəyyən edilməsi;
- Azərbaycanda sığorta şirkətlərinin idarəetmə keyfiyyətinin artırılması üzrə təklif və tövsiyələrin işlənib hazırlanması.



**Tədqiqatın metodları.** Dissertasiyada iqtisadi-statistik təhlil, təhlil-sintez, induksiya, deduksiya, müqayisəli təhlil, abstraktlaşdırma, ümumiləşdirmə, statistik qruplaşdırma, funksional təhlil, empirik metodlar, korrelyasiya-reqressiya təhlili, ekonometrik modelləşdirmə və s. kimi metodlardan istifadə olunmuşdur.

**Dissertasiya işinin müdafiəyə çıxarılmış başlıca müddəalarını aşağıdakı kimi göstərə bilərik:**

- Müxtəlif ölkələrdə sığorta bazarı və sığorta fəaliyyətinin inkişaf xüsusiyyətləri və meyllərinin üzə çıxarılması (s.41-46);
- Ölkəmizdə sığorta bazarının təhlili əsasında onun inkişafının müasir tendensiyalarının aşkarlanması (s.57-64);
- Ölkədə fəaliyyət göstərən sığorta şirkətlərində idarəetmə keyfiyyətinin yüksəldilməsi sahəsində qabaqcıl beynəlxalq təcrübənin tətbiqi istiqamətlərinin göstərilməsi (s.69-74);
- Sığorta bazarında sığorta haqlarının həcminə təsir edən amillərin korrelyasiya-reqressiya asılılığının müəyyən edilməsi əsasında sığorta haqlarının nominal gəlirlərə görə elastikliyinin ekonometrik modelinin qurulması (s.79-85);
- Ölkədə sığorta sektorunun inkişaf perspektivləri və prioritet istiqamətlərinin göstərilməsi (s.87-90);
- Milli sığorta bazarında fəaliyyət göstərən sığorta şirkətlərində idarəetmənin keyfiyyətinin təmin olunması məqsədilə onların təşkilati-idarəetmə strukturunun fəaliyyətinin səmərəli mexanizmlərinin işlənib hazırlanması (s.97-122);
- Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin artırılması üzrə təklif və tövsiyələrin verilməsi (s.123-134).

**Tədqiqatın elmi yeniliyi** sığorta fəaliyyətinin nəzəri əsaslarının sistemləşdirilməsi, sığorta sistemi və sığorta şirkətlərinin fəaliyyətinin təhlili və müasir vəziyyətinin qiymətləndirilməsi əsasında Azərbaycanda sığorta şirkətlərində idarəetmə sisteminin keyfiyyətinin təmin olunması üzrə elmi əsaslandırılmış təklif və

tövsiyələr işlənib hazırlanmasından ibarətdir. Bu baxımdan nəzəri və praktiki aspektdə:

- Ayrı-ayrı ölkələrin sığorta sisteminin və sığorta bazarının formalaşması xüsusiyyətləri və inkişaf tendensiyaları müəyyən edilmişdir (s.42-45);
- Milli sığorta bazarının inkişaf dinamikasının təhlili əsasında onun müasir meylləri aşkarlanmışdır (s.56-64);
- Azərbaycanın və xarici sığorta şirkətlərinin fəaliyyətinin müqayisəli təhlili əsasında yerli sığorta şirkətlərinin idarəetmə keyfiyyətinin artırılması məqsədi ilə beynəlxalq təcrübənin tətbiqi imkanları müəyyən edilmişdir (s.67-74);
- Ölkədə sığorta bazarının inkişafı və sığorta şirkətlərinin fəaliyyətinin ekonometrik qiymətləndirilməsi aparılmışdır (s.79-86);
- Azərbaycanda sığorta fəaliyyətinin inkişafının prioritet istiqamətləri müəyyən edilmişdir (s.87-90);
- Ümumən Azərbaycanın sığorta sistemində mövcud olan və sığorta şirkətlərində idarəetmə keyfiyyətinin artırılmasına birbaşa və dolayı yolla təsir göstərən problemlər müəyyən edilmiş və onların aradan qaldırılması üzrə tədbirlər planı hazırlanmışdır (s.90-93);
- Daxili sığorta bazarının və sığorta şirkətlərinin idarə olunmasının səmərəli mexanizmləri işlənib hazırlanmışdır (s.97-122);
- Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin artırılması üzrə elmi və praktiki cəhətdən əsaslandırılmış təklif və tövsiyələr irəli sürülmüşdür (s.123-134).

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində irəli sürülən fikirlər tədqiq olunan mövzuya dair yeni elmi araşdırmalar üçün mühüm bazis rolunu oynayır. Dissertasiya işinin nəzəri və praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqat çərçivəsində irəli sürülən təkliflər ölkənin sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsinə kömək edə bilər. Bundan başqa bu təkliflər biznes və kommersiya məqsədləri üçün istifadə oluna bilər. Nəhayət, dissertasiya işində əldə olunmuş elmi



müddəalar ali təhsil müəssisələrində tədris edilən müvafiq fənlərə daxil olunaraq bakalavr və magistr tələbələrinə çatdırıla bilər.

**Aprobasiya və tətbiqi.** Dissertasiya işinin əsas müddəa, nəticə və təklifləri keçirilmiş ümumrespublika və beynəlxalq səviyyəli konfranslarda müzakirə edilmişdir. Tədqiqatın əsas müddəa və nəticələri, əsaslandırılmış təkliflər elmi seminarlarda məruzə edilmişdir. Onlardan "Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsi" // Heydər Əliyev Azərbaycanın milli dövlətçilik siyasətinin banisidir" mövzusunda doktorant və dissertantların elmi konfransı (Bakı: DİA, 2014); "Beynəlxalq ticarətin tənzimlənməsində sığorta sisteminin rolu" // Heydər Əliyev irsi və Azərbaycan Respublikasının davamlı inkişafı mövzusunda doktorant və dissertantların elmi-praktiki konfransı (Bakı: DİA, 2015); "Azərbaycanda sığorta bazarının formalaşması və onun müasir vəziyyətinin təhlili" // Ulu Öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər mövzusunda beynəlxalq elmi konfransı (Bakı: BSU, 2016); "Şirkətlərdə idarəetmə keyfiyyəti və onun təkmilləşdirilməsində dünya təcrübəsi" // Heydər Əliyev ideyaları müasir Azərbaycanın uğurlu inkişaf siyasətinin təməlidir" mövzusunda doktorant və dissertantların elmi-praktiki konfransı (Bakı: DİA, 2016); "Agricultural insurance in Azerbaijan and its economic necessity"// "Euroscience" XXXVII Beynəlxalq elmi-praktiki konfransı (Moskva: 2021)

Tədqiqat işinin nəticələri Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə edilən nüfuzlu elmi jurnallarda, elmi məqalələr toplusunda, habelə üçü xaricdə rəsmi şəkildə qeydə alınaraq ixtisaslaşdırılan və nəşrlər toplusuna daxil edilən jurnallarda dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası.

**Dissertasiya işinin həcmi və strukturu:** Dissertasiya işinin struktur bölmələrinin ayrı ayrılıqda həcmi qeyd olunmaqla işarələr ilə ümumi həcmi 144 səhifədən (285877 işarə) ibarətdir. Belə ki, giriş (14296 işarə), I fəsil (80599 işarə), II fəsil (72740 işarə), III

fəsil (75463 işarə), nəticə (24687 işarə), istifadə edilmiş ədəbiyyat siyahısı (15604 işarə). Cədvəl, şəkil və diaqramlar, o cümlədən istifadə edilmiş ədəbiyyat siyahısı nəzərə alınmadan dissertasiya işi 125 səhifə (258338 işarə) təşkil edir.

## DİSSERTASİYA İŞİNİN STRUKTURU


**GİRİŞ**

**I FƏSİL. SIĞORTA PROBLEMLƏRİNİN ÖYRƏNİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI**

1.1. Sığorta sahəsinin inkişafı məsələlərinə nəzəri yanaşmalar

1.2. Sığorta sisteminin fəaliyyəti və sığorta müəssisələrinin idarə olunmasının metodoloji prinsipləri və xüsusiyyətləri

1.3. Sığorta sistemi və sığorta bazarının inkişafı sahəsində beynəlxalq təcrübə

**II FƏSİL. AZƏRBAYCANDA SIĞORTA BAZARI VƏ SIĞORTA ŞİRKƏTLƏRİNİN FƏALİYYƏTİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ**

2.1. Milli sığorta bazarının formalaşması və inkişaf dinamikası

2.2. Yerli və xarici sığorta şirkətlərinin fəaliyyətinin və idarəetmə keyfiyyətinin müqayisəli təhlili

2.3. Azərbaycanda sığorta bazarı və sığorta şirkətlərinin fəaliyyətinin ekonometrik təhlili və qiymətləndirilməsi

**IIIFƏSİL. AZƏRBAYCANDA SIĞORTA ŞİRKƏTLƏRİNİN İDARƏ EDİLMƏSİNİN TƏKMİLLŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ**

3.1. Azərbaycanda sığorta fəaliyyətinin inkişafının prioritet istiqamətləri

3.2. Milli sığorta bazarında fəaliyyət göstərən sığorta şirkətlərinin idarə edilməsinin səmərəli mexanizmləri

3.3. Ölkədə sığorta sahəsində idarəetmə keyfiyyətinin artırılması yolları

**NƏTİCƏ**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**




## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS MÜDDƏALAR

**1. Müxtəlif ölkələrdə sığorta bazarı və sığorta fəaliyyətinin inkişaf xüsusiyyətləri və meyllərinin üzə çıxarılması (4, s.30-34).**

Dünyanın müxtəlif ölkələrində sığorta bazarının mövcud vəziyyətinin tədqiqi son dərəcə əhəmiyyətlidir. Çünki bunun sayəsində müxtəlif ölkələrin sığorta şirkətlərinin və bütövlükdə sığorta bazarının inkişaf istiqamətləri müəyyən edilir. Tədqiqatın nəticələri göstərir ki, əhalidə sığortaya olan marağın, inamın və eləcə də sığorta etdirmək istəyinin yüksək olması əsasən Almaniya, İngiltərə, Fransa, İtaliya və digər inkişaf etmiş ölkələrdə sığorta bazarının inkişafını daha da sürətləndirir. Aparılmış statistik təhlil əsasında ümumi sığorta haqlarının payına görə böyük sığorta bazarı olan ölkələr müəyyən edilmişdir.

**Cədvəl 1**

**Böyük sığorta bazarına malik ölkələr**

| **Ölkələr** | **Ümumi sığorta haqları (milyon dollarla)** | | | | |
|---|---|---|---|---|---|
| | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
| ABŞ | 2 703 793 | 2 836 293 | 2 632 284 | 2 773 916 | 2 934 829 |
| Yaponiya | 434 737 | 390 096 | 402 773 | 399 088 | 385 035 |
| İngiltərə | 403 794 | 394 929 | 471 031 | 418 559 | 380 960 |
| Fransa | 314 251 | 314 319 | 338 708 | 332 471 | 302 729 |
| Almaniya | 294 660 | 311 208 | 335 669 | 344 268 | 365 897 |
| İtaliya | 151 423 | 150 732 | 163 781 | 158 241 | 155 752 |

Mənbə: Cədvəl iqtisadi əməkdaşlıq və inkişaf təşkilatının məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur [99] https://stats.oecd.org/Index.aspx?DataSetCode=INSIND

Qeyd olunan bu ölkələrlə yanaşı son illər Türkiyə, Avstraliya, Meksika və Estoniya kimi ölkələrdə əsasən qeyri həyat sığortası üzrə sığorta haqları əhəmiyyətli dərəcədə artmışdır.

Məsələn, Türkiyədə qeyri həyat sığortası üzrə sığorta haqlarının yüksək olmasının səbəbi avtomobil sahiblərinin məsuliyyətinin sığortasında ortaya çıxan artım olmuşdur. Bundan başqa avtomobil sığortası və üçüncü şəxslər qarşısında məsuliyyət sığortası üzrə yığımların artması da əsas səbəblərdən biri sayılır. Avstraliyada isə qeyri həyat sığortası üzrə artımın əsas səbəbi sənaye risklərindən sığorta və daşınmaz əmlakın sığortası üzrə

yığımların artması hesab olunur. Meksikada bu artım ölkənin ən böyük neft şirkəti sayılan "Pemeks" şirkətinin sığortalanmasından qaynaqlanır. Estoniyada isə qeyri həyat sığortası üzrə sığorta haqlarının artmasının səbəbi Baltikyanı ölkələr üzrə sığortalıların çoxunun Estoniyada birləşməsi hesab olunur. Tədqiqatın nəticələri göstərir ki, dünyanın inkişaf etmiş ölkələrində sığorta bazarının yüksək səviyyədə təkmilləşmə səbəbi nüfuzlu sığorta şirkətləridir. Bu şirkətlər tutumlu kapital ehtiyatlarına malik olmaqla sığorta bazarının inkişafına önəmli şəkildə təsir edir. Bu proses əsasən ABŞ ilə yanaşı bir çox Avropa ölkələrində də müşahidə edilməkdədir.

**2. Ölkəmizdə sığorta bazarının təhlili əsasında onun inkişafının müasir tendensiyalarının aşkarlanması (7, s.119-125; 8, s.57-65).**

Tədqiqat işində ilk növbədə statistik məlumatlar əsasında müxtəlif sığorta növləri üzrə 2016-cı ildən 2020-ci ilədək olan dövrün sığorta haqlarının və sığorta ödənişlərinin müqayisəli təhlili aparılmışdır.

**Cədvəl 2**

**Sığorta sinifləri üzrə sığorta yığımları (milyon manatla)**

| **Sığorta sinifləri** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|
| Həyat sığortası | 115,6 | 177, 9 | 305,7 | 219,4 | 249,7 |
| Fərdi qəza və xəstəlik sığortası | 3,8 | 4,3 | 3,3 | 3,4 | 2,9 |
| Tibbi sığorta | 84,7 | 83,2 | 87,1 | 95,8 | 101,6 |
| Səyahət sığortası | 2,6 | 3,1 | 3,8 | 4,9 | 1,4 |
| Əmlak sığortası | 89,6 | 87,5 | 112,1 | 111,7 | 125,8 |
| Mülki məsuliyyətin sığortası | 22,4 | 19,3 | 22,3 | 20,9 | 20,8 |
| Kredit sığortası | 0,02 | 0 | 1,9 | 0,2 | 0,1 |
| Qarışıq maliyyə risklərinin sığortası | 0,001 | 0,001 | 0,006 | 0,3 | 0,4 |
| İcbari sığortalar üzrə cəmi | 167,4 | 181,6 | 191,7 | 224,6 | 225,9 |
| **Yekun** | **486,1** | **556,9** | **727,9** | **681,2** | **728,6** |

Mənbə: Cədvəl Azərbaycan Respublikasının Mərkəzi Bankının statistik məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur [116]. - https://www.cbar.az/page-189/insurance



Göründüyü kimi 5 illik dövrdə ən çox yığım icbari sığortanın payına düşmüşdür. Bunun əsas səbəbi isə icbari sığortanın Azərbaycanda məcburi qaydada həyata keçirilməsidir. Bundan başqa həyat sığortası üzrə sığorta yığımları da bu dövr ərzində müəyyən qədər artmışdır. Statistik təhlil zamanı tibbi sığorta üzrə yığımların tədricən artımı, səyahət sığortası üzrə isə yığımların 2020-ci ildə ciddi şəkildə azaldığı müəyyən edilmişdir. Səyahət sığortası üzrə yığımların 2020-ci ildə kəskin azalmasının əsas səbəbi bütün dünyanı bürüyən yeni növ koronavirus pandemiyası və bu pandemiyanın ölkəmizə mənfi təsirləri ilə bağlı olmuşdur. Sığorta sinifləri üzrə sığorta ödənişlərinin həcmini aşağıdakı cədvəldə görə bilərik.

**Cədvəl 3**

**Sığorta sinifləri üzrə sığorta ödənişləri (milyon manatla)**

| **Sığorta sinifləri** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|
| Həyat sığortası | 90,9 | 126,3 | 95 | 121,8 | 280,4 |
| Fərdi qəza və xəstəlik sığortası | 1 | 0,5 | 0,3 | 0,4 | 0,2 |
| Tibbi sığorta | 61,6 | 53 | 59,5 | 60,5 | 67,9 |
| Səyahət sığortası | 0,6 | 0,4 | 0,7 | 0,5 | 0,3 |
| Əmlak sığortası | 24,8 | 16,4 | 15 | 36,7 | 29,4 |
| Mülki məsuliyyətin sığortası | 0,5 | 2,8 | 2 | 1 | 0,6 |
| Kredit sığortası | 0,06 | 0,00 | 0,00 | 0,00 | 0,00 |
| Qarışıq maliyyə risklərinin sığortası | 0,00 | 0,00 | 0,00 | 0,00 | 0,01 |
| İcbari sığortalar üzrə cəmi | 57,8 | 57,7 | 67,8 | 80,6 | 86,4 |
| **Yekun** | **237 ,2** | **257,1** | **240,3** | **301,5** | **465,2** |

Mənbə: Cədvəl Azərbaycan Respublikasının Mərkəzi Bankının statistik məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur [116]. - https://www.cbar.az/page-189/insurance

Statistik təhlilin nəticələri göstərir ki, Azərbaycanın sığorta bazarında 2016-2020-ci illəri əhatə edən dövr ərzində tibbi sığorta və həyat sığortası üzrə ödənişlər artsa da, səyahət sığortası üzrə ödənişlər azalmışdır. Tibbi sığorta üzrə ödənişlərin artımında əsas

səbəb son dövrlər bir çox şirkətlərin öz işçilərini rəsmi qaydada tibbi sığorta üzrə sığortalamasıdır. Bu sığorta növü üzrə sığortalanan şəxslər tibbi sığorta müqaviləsində qeyd olunmuş qaydada lazımi tibbi müəssisələrdə müalicə və müayinə xidmətlərindən pulsuz istifadə edirlər. Ümumiyyətlə tədqiqat işində aparılmış statistik təhlillərin nəticələri göstərir ki, 2016-cı ildən 2020-ci ilədək olan bir dövrdə hər il sığorta ödənişləri ümumi olaraq artım göstərmişdir. Bu isə 5 illik dövr ərzində baş verən sığorta hadisələrinin çoxluğunu göstərir.

Sığorta haqlarının dinamikası (milyon manatla)




| | Paşa Sığorta | Axa Mbask | Az Sığorta | Xalq Sığorta | Atəşgah Həyat |
|---|---|---|---|---|---|
| 2016 | 100.00 | 22 | 22.7 | 9.80 | 37.4 |
| 2017 | 108 | 22.3 | 25.3 | 7.8 | 38.4 |
| 2018 | 128.00 | 18.60 | 20 | 14.5 | 60.1 |
| 2019 | 150.20 | 9.80 | 15.3 | 28.3 | 39.1 |
| 2020 | 163.50 | 5.40 | 15.9 | 31.2 | 41.5 |

2016 2017 2018 2019 2020

**Qrafik 1 Sığortaçılar üzrə hesablanmış ümumi sığorta haqlarının dinamikası**

Mənbə: [116].-https://www.cbar.az/page-189/insurance

Stasitik təhlillərin nəticəsi göstərir ki, 2016-cı ildən 2020-ci ilədək olan dövrdə "Paşa Sığorta" və "Xalq Sığorta" şirkətinin topladığı sığorta haqları digər sığorta şirkətlərindən daha yüksək həddə çatmış və artan templə müşahidə edilmişdir. Qeyd edək ki, "Paşa Sığorta" və "Xalq Sığorta" Azərbaycanın sığorta bazarında



kifayət qədər nüfuzlu və böyük müştəri kütləsinə sahib olan şirkətlər hesab olunur.

Sığorta ödənişlərinin dinamikası (milyon manatla)




| | Paşa Sığorta | Axa Mbask | Az Sığorta | Xalq Sığorta | Atəşgah Həyat |
|---|---|---|---|---|---|
| 2016 | 47.40 | 9.8 | 7.8 | 6.60 | 27.1 |
| 2017 | 43.4 | 12.3 | 9.1 | 4 | 55 |
| 2018 | 49.50 | 9.60 | 8.1 | 3.8 | 14.7 |
| 2019 | 52.80 | 6.10 | 4.8 | 16 | 19.1 |
| 2020 | 71.50 | 6.30 | 6 | 17.6 | 56 |

2016 2017 2018 2019 2020

**Qrafik 2 Sığortaçılar üzrə sığorta ödənişlərinin dinamikası**

Mənbə: [116].-https://www.cbar.az/page-189/insurance

Sığorta ödənişləri üzrə dinamikanı əks etdirən qrafikə (qrafik 2) nəzər salsaq görərik ki, "Paşa Sığorta", "Xalq Sığorta" və "Atəşgah Həyat" sığorta şirkətləri 5 illik dövrdə sığorta hadisəsinə görə ən çox ödəniş etmiş sığorta şirkətləridir. Qeyd edək ki, sığorta bazarı və o cümlədən sığorta şirkətləri Azərbaycanda əhalinin təminatçısı kimi böyük rol oynayır. Bu səbəbdən hər bir sığorta şirkətinin inkişafının təmin olunması və bu yolla ölkədə inkişaf etmiş sığorta bazarının formalaşdırılması qarşıda duran ən mühüm məsələlərdən biri sayılır.

**3. Ölkədə fəaliyyət göstərən sığorta şirkətlərində idarəetmə keyfiyyətinin yüksəldilməsi sahəsində qabaqcıl beynəlxalq təcrübənin tətbiqi istiqamətlərinin göstərilməsi (10, s.237-244; 11, s.271-278; 12, s.115-120).**

Əminliklə qeyd etmək olar ki, sığorta şirkətlərində idarəetmə keyfiyyətinin yüksəldilməsi onların inkişafına təsir edən başlıca amillərdən biridir. Biz dünyanın tanınmış və nüfuzlu sığorta şirkətlərinə "AXA", "AİG", "Lloyds" kimi sığorta şirkətlərini misal göstərə bilərik ki, bu şirkətlər peşəkar menecerlər tərəfindən yüksək səviyyədə idarə olunur. Xarici sığorta şirkətləri ilə yerli sığorta şirkətlərinin fəaliyyətinin müqayisəli təhlili zamanı onların idarəetmə keyfiyyəti arasında kəskin fərqlərin ortaya çıxdığı məlum olur. Belə ki, Azərbaycanın sığorta şirkətlərinin əksəriyyətində qeyri peşəkar əmək bölgüsü, aşağı likvidlik səviyyəsi, rəhbərlərdə liderlik qabiliyyətinin çatışmazlığı kimi faktorlar onların inkişafına mane olur. Müasir dövrdə nüfuzlu sığorta şirkətlərinin tətbiq etdiyi bir sıra effektiv idarəetmə üsulları vardır ki, bu üsullar hər bir sığorta şirkətinin idarəetmə keyfiyyətinin yüksəldilməsi üçün faydalıdır.Bu üsullara informasiya texnologiyalarının geniş tətbiqi, resurslardan səmərəli istifadə edilməsi, marketinq fəaliyyətinin təkmilləşdirilməsi, ixtisaslı kadrların cəlb edilməsi, korporativ islahatlardan geniş istifadə və s. aid edilə bilər.

**4. Sığorta bazarında sığorta haqlarının həcminə təsir edən amillərin korrelyasiya-reqressiya asılılığının müəyyən edilməsi əsasında sığorta haqlarının nominal gəlirlərə görə elastikliyinin ekonometrik modelinin qurulması.**

Qeyd etmək vacibdir ki, sığorta haqlarının artımı bir başa əhalinin gəlirlərindən asılıdır. Bu təsirin kəmiyyət qiymətləndirilməsi üsulu korrelyasiya-reqressiya modellərinin qurulmasıdır.

**Cari rübün nominal gəlirlərinin cari rübün sığorta haqlarına təsiri.** Bu təsirin qiymətləndirilməsi üçün qurulan reqressiya modeli aşağıdakı kimidir.

$$INSH = 51815758 + 0{,}008 \cdot INCOME$$
$$(74933934) \quad (0{,}0056) \qquad R^2 = 0{,}10$$

Burada INSH – manatla ifadə olunan sığorta haqları, INCOME isə manatla ifadə olunan gəlirlərin həcmidir. Modeldən çıxan nəticə ondan ibarətdir ki, gəlirlərin bir milyon manat artımı sığorta haqlarını 8000 manat artırır. Lakin əmsallarının statistik əhəmiyyətliliyi baxımından onların standart xətalarının (mötərizədə verilmişdir)



model qənaətbəxş deyil. Bunu əmsalların p-qiyməti də göstərir: sərbəst hədd üçün p = 0,5, INCOME əmsalı üçün p = 0,17. Bu isə o deməkdir ki, 15% əhəmiyyətlilik dərəcəsində gəlirlərin təsiri əhəmiyyətsizdir. Determinasiya əmsalının da kiçikliyi ($R^2 = 0{,}1$) cari rübün gəlirlərinin təsir gücünün aşağı olmasına dəlalət edir (Cədvəl 4).

**Cədvəl 4**

**Cari rübün nominal gəlirlərinin cari rübün sığorta haqlarına təsiri modeli**

| | | | | |
|---|---|---|---|---|
| Dependent Variable: INSH | | | | |
| Method: Least Squares (Gauss-Newton / Marquardt steps) | | | | |
| Date: 03/14/21 Time: 20:45 | | | | |
| Sample: 2016Q1 2020Q4 | | | | |
| Included observations: 20 | | | | |
| INSH=C(1)+C(2)*INCOME | | | | |
| | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| C(1) | 51815758 | 74933934 | 0.691486 | 0.4981 |
| C(2) | 0.008216 | 0.005714 | 1.437809 | 0.1676 |
| R-squared | 0.103018 | Mean dependent var | | 1.59E+08 |
| Adjusted R-squared | 0.053186 | S.D. dependent var | | 33833628 |
| S.E. of regression | 32921601 | Akaike info criterion | | 37.55180 |
| Sum squared resid | 1.95E+16 | Schwarz criterion | | 37.65137 |
| Log likelihood | -373.5180 | Hannan-Quinn criter. | | 37.57123 |
| F-statistic | 2.067295 | Durbin-Watson stat | | 1.738459 |
| Prob(F-statistic) | 0.167647 | | | |

Mənbə: Cədvəl Eviews proqramının istifadəsi ilə müəllif tərəfindən tərtib olunmuşdur

**Əvvəlki rübün nominal gəlirlərinin cari rübün sığorta haqlarına təsiri.** Bu asılılıq aşağıdakı şəkildə alınmışdır.

$$INSH = -57766058 + 0{,}017 \cdot INCOME(-1)$$
$$(63267968) \quad (0{,}0049) \qquad R^2 = 0{,}41$$

Burada INCOME(-1) ötən rübün gəlirlərinin manatla ifadə olunan həcmidir. Bu model qənaətbəxşdir. Əvvəla, determinasiya əmsalı kifayət qədər böyükdür ($R^2 = 0{,}41$). Digər tərəfdən, INCOME(-1)-in əmsalı hətta 1% səviyyəsində əhəmiyyətlidir – onun

p-qiyməti 0,003-ə bərabərdir. Nəhayət, modelin çox cüzi müsbət avtokorrelyasiyası var, belə ki, Darbin-Vatson statistikası DW = 1,71 (Cədvəl 5) ki, bu da zaman sıraları üçün qənaətbəxş göstəricidir. Bu xüsusiyyətlərə görə modelin interpretasiyası da məqbul sayıla bilər. Belə ki, modeldən göründüyü kimi ötən rübdə gəlirlərin milyon manat artımı cari rübdə sığorta haqlarının 17 000 manat artmasına səbəb olur.

**Cədvəl 5**

**Əvvəlki rübün nominal gəlirlərinin cari rübün sığorta haqlarına təsiri modeli**

| | | | | |
|---|---|---|---|---|
| Dependent Variable: INSH | | | | |
| Method: Least Squares (Gauss-Newton / Marquardt steps) | | | | |
| Date: 03/14/21 Time: 20:45 | | | | |
| Sample (adjusted): 2016Q2 2020Q4 | | | | |
| Included observations: 19 after adjustments | | | | |
| INSH=C(1)+C(2)*INCOME(-1) | | | | |
| | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| C(1) | -57766058 | 63267968 | -0.913038 | 0.3740 |
| C(2) | 0.016711 | 0.004845 | 3.449314 | 0.0031 |
| R-squared | 0.411719 | Mean dependent var | | 1.59E+08 |
| Adjusted R-squared | 0.377114 | S.D. dependent var | | 34723630 |
| S.E. of regression | 27404965 | Akaike info criterion | | 37.18965 |
| Sum squared resid | 1.28E+16 | Schwarz criterion | | 37.28906 |
| Log likelihood | -351.3016 | Hannan-Quinn criter. | | 37.20647 |
| F-statistic | 11.89776 | Durbin-Watson stat | | 1.708742 |
| Prob(F-statistic) | 0.003063 | | | |

Mənbə: Cədvəl Eviews proqramının istifadəsi ilə müəllif tərəfindən tərtib olunmuşdur

**İki rüb əvvəlki nominal gəlirlərin cari rübün sığorta haqlarına təsiri.** Bu asılılıq aşağıdakı şəkildə alınmışdır.

$$INSH = -59687278 + 0,017 \cdot INCOME(-2)$$
$$(64868714) \qquad (0,005) \qquad R^2 = 0,42$$

Burada INCOME(-2) iki rüb əvvəlki gəlirlərin manatla ifadə olunan həcmidir. Bu model də qənaətbəxşdir. Əvvəla, determinasiya



əmsalı daha da böyükdür ($R^2$ = 0,42). Digər tərəfdən, burada da INCOME(-2)-in əmsalı əhəmiyyətlidir – onun p-qiyməti 0,0035-ə bərabər olmaqla hətta 1% səviyyəsində əhəmiyyətlidir. Burada avtokorrelyasiya istiqamətini mənfiyə dəyişsə də, yenə də cüzidir: DW = 2,41 (Cədvəl 6).

**Cədvəl 6**

**İki rüb əvvəlki nominal gəlirlərin cari rübün sığorta haqlarına təsiri modeli**

| | | | | |
|---|---|---|---|---|
| Dependent Variable: INSH | | | | |
| Method: Least Squares (Gauss-Newton / Marquardt steps) | | | | |
| Date: 03/14/21 Time: 20:45 | | | | |
| Sample (adjusted): 2016Q3 2020Q4 | | | | |
| Included observations: 18 after adjustments | | | | |
| INSH=C(1)+C(2)*INCOME(-2) | | | | |
| | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| C(1) | -59687278 | 64868714 | -0.920124 | 0.3712 |
| C(2) | 0.017062 | 0.004993 | 3.416927 | 0.0035 |
| R-squared | 0.421869 | Mean dependent var | | 1.61E+08 |
| Adjusted R-squared | 0.385736 | S.D. dependent var | | 35118101 |
| S.E. of regression | 27523813 | Akaike info criterion | | 37.20344 |
| Sum squared resid | 1.21E+16 | Schwarz criterion | | 37.30237 |
| Log likelihood | -332.8310 | Hannan-Quinn criter. | | 37.21708 |
| F-statistic | 11.67539 | Durbin-Watson stat | | 2.408014 |
| Prob(F-statistic) | 0.003532 | | | |

Mənbə: Cədvəl Eviews proqramının istifadəsi ilə müəllif tərəfindən tərtib olunmuşdur

Deməli, bu model də məqbuldur və göstərir ki, iki rüb əvvəlki gəlirlərin milyon manat artımı cari rübdə sığorta haqlarının 17 000 manat artmasına səbəb olur.

**Cari rüb sığorta haqlarının iki rüb əvvəlki nominal gəlirlərə görə elastikliyinin qiymətləndirilməsi.** Bu modelin görünüşü aşağıdakı kimidir.

$$LOG(INSH) = -15,3 + 1,47 \cdot LOG(INCOME(-2))$$
$$(9,07) \qquad (0,39) \qquad R^2 = 0,47$$

Göründüyü kimi bu modelin statistik göstəriciləri əvvəlkilərlə müqayisədə daha yaxşıdır. Determinasiya əmsalı daha yüksəkdir ($R^2$ = 0,47). Sərbəst həddin p-qiyməti daha kiçikdir (p = 0,11). LOG(INCOME(-2))-in əmsalının p-qiyməti 0,0017-yə bərabər olmaqla hətta 0,2% səviyyəsində əhəmiyyətlidir. Burada da cüzi mənfi avtokorrelyasiya müşahidə olunur: DW = 2,36 (Cədvəl 7).

**Cədvəl 7**

**Cari rüb sığorta haqlarının iki rüb əvvəlki nominal gəlirlərə görə elastikliyini əks etdirən model**

| | | | | |
|---|---|---|---|---|
| Dependent Variable: LOG(INSH) | | | | |
| Method: Least Squares (Gauss-Newton / Marquardt steps) | | | | |
| Date: 03/14/21 Time: 20:47 | | | | |
| Sample (adjusted): 2016Q3 2020Q4 | | | | |
| Included observations: 18 after adjustments | | | | |
| LOG(INSH)=C(1)+C(2)*LOG(INCOME(-2)) | | | | |
| | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| C(1) | -15.27541 | 9.070912 | -1.683999 | 0.1116 |
| C(2) | 1.467012 | 0.389686 | 3.764604 | 0.0017 |
| R-squared | 0.469711 | Mean dependent var | | 18.87265 |
| Adjusted R-squared | 0.436568 | S.D. dependent var | | 0.225819 |
| S.E. of regression | 0.169504 | Akaike info criterion | | -0.607435 |
| Sum squared resid | 0.459708 | Schwarz criterion | | -0.508505 |
| Log likelihood | 7.466919 | Hannan-Quinn criter. | | -0.593794 |
| F-statistic | 14.17224 | Durbin-Watson stat | | 2.364595 |
| Prob(F-statistic) | 0.001695 | | | |

Mənbə: Cədvəl Eviews proqramının istifadəsi ilə müəllif tərəfindən tərtib olunmuşdur

Beləliklə, bu modelə əsaslanaraq əminliklə hökm etmək olar ki, cari rüb sığorta haqlarının iki rüb əvvəlki nominal gəlirlərə görə elastikliyi 1,47-yə bərabərdir, yəni bu asılılıq elastikdir. Başqa sözlə, iki rüb əvvəlki nominal gəlirlərin 1% artımı cari rüb sığorta haqlarının təqribən 1,5% artımına səbəb olur. Aparılan ekonometrik təhlillər nəticəsində determinasiya əmsalının tədricən yüksəlməsi



müşahidə olunmuşdur ki, bu da sığorta haqlarının əhalinin nominal gəlirlərindən funksional asılılığını müəyyən edir və bu asılılığın statistik adekvatlığını əsaslandırır. Ümumiyyətlə toplanmış statistik məlumatlar əsasında qurulan və yuxarıda göstərilən ekonometrik modellər çox sadədir və istifadə üçün yararlıdır.

**5. Ölkədə sığorta sektorunun inkişaf perspektivləri və prioritet istiqamətlərinin göstərilməsi (13, s.19-27; 14, s.209-210).**

Azərbaycan iqtisadiyyatında sığorta bazarının rolunun ortaya qoyulması mühüm əhəmiyyət daşıyır. Bu baxımdan aktual məsələlərdən biri Azərbaycanda sığorta fəaliyyətinin inkişafının prioritet istiqamətlərinin müəyyən olunmasıdır. Azərbaycanda iqtisadiyyatın elə sahələri vardır ki, sığorta fəaliyyətinin bu istiqamətdə inkişaf etdirilməsi hər zaman zərurət doğurur. Bu sektorlardan biri kənd təsərrüfatı sektorudur. Ölkə əhalisinin yeyinti məhsullarına olan tələbatının çox hissəsi kənd təsərrüfatı sektoru tərəfindən təmin edildiyinə görə bu sektorda sığorta fəaliyyətini təkmilləşdirmək mühüm amillərdən biridir Qeyd edək ki, respublikanın kənd təsərrüfatı sektorunda risklərin müştərək sığorta sistemi yoluyla sığorta olunması, sığorta sahəsində münasibətlərin tənzimlənməsi, kənd təsərrüfatı sığortasının, təşkilati, o cümlədən iqtisadi əsaslarının müəyyən edilməsi məqsədilə cənab Prezident İlham Əliyev tərəfindən 27 iyun 2019-cu ildə "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Regionlarda əhalinin müəyyən qisminin kənd təsərrüfatının əkinçilik və heyvandarlıq növü ilə məşğul olduğunu və bu sektorun iqlim dəyişikliyinə həssas olduğunu nəzərə alaraq kənd təsərrüfatı məhsullarının sığortalanmasının əhəmiyyətini əsaslandırmaq olar.

Belə ki, aqrar sahədə sığortanın cəlbediciliyini yüksəltmək üçün fermerlərin sığortaya cəlb edilməsi sığorta şirkətləri tərəfindən hər zaman diqqət mərkəzində olmalıdır.

Sığorta fəaliyyətinin təkmilləşdirilməsi ölkədə turizm sektorunun inkişafına da şərait yaradır. Bu baxımdan turizm sektorunda sığorta fəaliyyətinin inkişaf etdirilməsini daha bir prioritet isitqamətlərdən hesab edə bilərik. Qeyd edək ki, hər il ölkəmizə çox sayda müxtəlif məqsədlərlə turistlər səfər edir. Onların

təhlükəsizliyinin qorunması, xəstəlikdən müalicə olunması və baş verə biləcək təhlükələrdən müdafiə olunması təbii ki son dərəcə əhəmiyyətlidir. Azərbaycana xarici turistlərin cəlb edilməsi təbii ki, ölkədə sığorta şirkətlərinin göstərdiyi sığorta xidmətlərinin keyfiyyətindən xeyli dərəcədə asılıdır. Sığorta şirkətləri sırf turizm sektorunun sığortalanması, bu sektorun inkişafına əhəmiyyətli dərəcədə təsir göstərən sığorta məhsullarının təkmilləşdirilməsi və sığorta xidmətləri keyfiyyətinin yüksəldilməsi istiqamətində də mühüm tədbirlər görməlidir. Belə ki, sığorta şirkətləri tərəfindən tibbi, fərdi qəza, səyahət və digər sığorta növləri üzrə xidmətlərin təkmilləşdirilməsi həm bu sahədə sığorta fəaliyyətinin, həm də bir başa turizm sektorunun inkişafını təmin edə bilər.

Azərbaycanda sığorta fəaliyyətinin inkişafının prioritet istiqamətlərindən biri olaraq həyat sığortasını göstərmək olar.

Ümumiyyətlə inkişaf etmiş ölkələrlə müqayisədə Azərbaycanda həyat sığortası haqlarının həcminin az olması ümumilikdə insanların həyat tərzinin, bu sığorta məhsulunun inkişaf potensialının və sığorta şirkətlərinin müvafiq inkişaf səviyyəsi ilə əlaqədardır. Hal-hazırda respublikamızda həyat sığortası üzrə "Paşa Həyat", "Atəşgah Həyat", "Xalq Həyat", "Qala Həyat" və "Meqa Həyat" sığorta şirkətləri fəaliyyət göstərir. Azərbaycanda həyat sığortasının inkişafı prioritet istiqamətlərdən biri olmaqla insanların həyatının, əmək qabiliyyətinin, o cümlədən sağlamlığının qorunmasında müstəsna əhəmiyyətə malikdir.

**6. Milli sığorta bazarında fəaliyyət göstərən sığorta şirkətlərində idarəetmənin keyfiyyətinin təmin olunması məqsədilə onların təşkilati-idarəetmə strukturunun fəaliyyətinin səmərəli mexanizmlərinin işlənib hazırlanması (1, s.157-166; 12, s.115-120).**

Dünya təcrübəsindən məlumdur ki, fəaliyyət sahəsində asılı olmayaraq bütün müəssisələrdə idarəetmə prosesinin əsasını onun səmərəli şəkildə həyata keçirilməsi təşkil edir. Ölkənin sığorta bazarında fəaliyyət göstərən sığorta şirkətlərində idarəetmənin keyfiyyətinin təmin olunması məqsədilə onların təşkilati-idarəetmə



strukturunun fəaliyyətinin səmərəli mexanizmlərinin doğru müəyyən edilməsi hər bir sığorta şirkətinin uğurlu fəaliyyətini təmin edə bilər.

Bu baxımdan Azərbaycanın sığorta şirkətlərinin səmərəli idarə olunma mexanizmlərindən biri kimi ictimaiyyətlə əlaqələrin düzgün qurulmasını göstərə bilərik. Sığorta şirkətlərində ictimaiyyətlə əlaqələrin bir çox üstünlükləri var. Belə ki, sığorta şirkətləri bu yolla öz məhsullarını bazara rahat çıxara bilir. Bu yolla onlar həm müştəri sayını artıra, həm də ixtisaslı kadr cəlb edə bilər. Xarici şirkətlərlə eləcə də xarici dövlətlərlə əlaqələrin qurulması asanlaşır və şirkət böhran vəziyyətində olduğu halda belə, kredit təşkilatlarından maliyyə dəstəyi ala bilir. Bundan əlavə ictimaiyyətlə əlaqələr hər bir şirkətdə dəyişikliyə hazır olmağa, eləcə də risklərə əvvəlcədən reaksiya verməyə imkan verir.

Səmərəli idarəetmə mexanizmlərindən biri kimi risklərin effektiv idarə edilməsini göstərə bilərik. Ümumiyyətlə hər bir ölkədə sığorta şirkətləri müasir bazar iqtisadiyyatı şəraitində müxtəlif risklərlə qarşılaşır ki, bu risklərin düzgün idarə edilməsi vacib məsələlərdən biridir. Bu baxımdan Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətləri risklərin minimallaşdırılması məqsədilə bir neçə effektiv üsullarından istifadə edə bilər. Bu üsullar diversifikasiyanın tətbiqi, hedcinq əməliyyatlarının aparılması və audit yoxlamasının davamlı həyata keçirilməsindən ibarətdir.

Sığorta şirkətlərinin idarə edilməsinin səmərəli mexanizmləri idarəetmə keyfiyyətinin yüksəldilməsinə müstəsna təsir göstərir

Dissertasiya işində idarəetmə keyfiyyətinin sığorta şirkətlərinin inkişafı üçün əhəmiyyəti izah olunmuş və onun effektivliyinin təmin edilməsi yolları müəyyən edilmişdir. Əldə edilmiş nəticələrə əsaslanaraq dünyanın inkişaf etmiş və nüfuz qazanmış sığorta şirkətlərinin bu istiqamətdə istifadə etdiyi üsulları Azərbaycanın sığorta şirkətlərində tətbiqinin məqsədəuyğun olduğunu qeyd edə bilərik. Belə ki, daxili nəzarət sisteminin effektiv formalaşdırılması, SWOT analizin düzgün həyata keçirilməsi, inkişaf etmiş ölkələrin sığorta təcrübəsindən istifadə edilməsi Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsində əhəmiyyətli rol oynaya bilər.

**7.Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin artırılması üzrə təklif və tövsiyələrin verilməsi (1, s.157-166; 11, s. 271-278; 12, s.115-120).**

Dissertasiya işindən əldə olunan nəticələrə əsaslanaraq Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsini təmin etmək məqsədilə bir neçə təklif və tövsiyələri irəli sürmək əhəmiyyətli olardı. Sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsini təmin etmək məqsədilə irəli sürülən təkliflərdən biri sığorta xidmətlərinin elektronlaşdırılması ilə bağlıdır. Belə ki, ölkədə əhalinin sığorta məhsullarından istifadəsinin asanlaşdırılması məqsədilə sığorta xidmətləri elektronlaşdırılmalıdır. Beynəlxalq təcrübə də sübut etmişdir ki, sığorta sistemində elektron xidmətlərin formalaşması sığorta bazarının inkişafına stimul verməklə yanaşı, əhali tərəfindən bu xidmətlərin daha çox istifadəsinə səbəb olur. Sığorta xidmətlərinin elektornlaşdırılması vasitəsilə sığorta məhsullarının, müştərilərin, debitor borclarının, o cümlədən gəlir və xərclərin idarə edilməsinin effektivliyi yüksəlir.

Sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsindən bəhs edərkən qeyd etməliyik ki, buraya həmçinin sığortalıların səmərəli idarə edilməsi də daxildir.

Sığortalıların idarə edilməsində sığorta şirkətinin maliyyə sabitliyinin və nüfuzunun qorunması əsas məsələlərdən hesab olunur.

Bu baxımdan edilən tövsiyələrdən biri ödəmə qabiliyyətinin gücləndirilməsidir. Qeyd edək ki, son zamanlar qəzaların və bədbəxt hadisələrin günü-gündən artması sığorta şirkətlərini böyük öhdəliklərlə üzləşdirir. Bəzən böyük zərərli sığorta hadisələrinin baş verməsi sığorta şirkətlərinin işini çətinləşdirir və bir çox hallarda sığorta şirkətləri bu zərərlərin əvəzini ödəmə gücündə olmurlar. Bu hal yarandıqda sığortalılarla sığorta şirkətləri arasında mübahisələr meydana gəlir ki, bu da kütləvi surətdə sığortalıların itkisi ilə nəticələnir. Bu səbəbdən sığortaçıların ödəmə qabiliyyətinin gücləndirilməsi çox önəmli faktordur.

İrəli sürülən təklif və tövsiyələr təkcə Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsi üçün yox,



həmçinin müasir dövrdə Azərbaycanın sığorta sektorunda hökm sürən mövcud problemlərin aradan qaldırılması üçün faydalıdır.

Tədqiqatın nəticəsi kimi qeyd etmək olar ki, yuxarıda irəli sürülən təklif və tövsiyələri reallaşdırmaqla hər bir sığorta şirkətində idarəetmə keyfiyyətini təkmilləşdirmək mümkündür.

## NƏTİCƏ

Dissertasiya işinin nəticələri göstərir ki, fəaliyyət göstərdiyi ölkədən asılı olmayaraq hər bir sığorta şirkətində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsi son dərəcə zəruridir. Lakin Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətlərinin əksəriyyəti idarəetmə keyfiyyətinin artırılmasını bəzi mövcud problemlərə görə reallaşdıra bilmir.

Belə ki, dissertasiya işində ümumən Azərbaycanın sığorta sistemində mövcud olan və sığorta şirkətlərinin idarəetmə keyfiyyətinə birbaşa və dolayı yolla təsir göstərən problemlər üzə çıxarılmış və onların həll edilməsi üçün tədbirlər planı hazırlanmışdır. Bundan əlavə sığorta şirkətlərində ortaya çıxan risklər göstərilmiş və onların idarə edilməsi üsulları sistemləşdirilmişdir. Digər tərəfdən yerli və xarici sığorta şirkətlərinin fəaliyyətinin müqayisəsi zamanı effektiv idarəetmə üsulları aşkar edilmiş və bu üsulların Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətlərində tətbiqi imkanları müəyyən edilmişdir.

Nəhayət qeyd etmək olar ki, qabaqcıl sığorta şirkətlərinin idarəetmə təcrübəsindən istifadə etməklə, onların idarəetmə effektivliyini artıran üsulları tətbiq etməklə Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətlərinin idarəetmə keyfiyyətini təkmilləşdirmək və bu yolla onların uğurlu inkişafını təmin etmək olar. Qeyd etdiyimiz müddəalar üzrə əldə olunan nəticələr daha geniş şəkildə dissertasiya işində öz əksini tapmışdır.

**Tədqiqatın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Əlizadə Ş.N., Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsi // "Heydər Əliyev Azərbaycanın milli dövlətçilik siyasətinin banisidir" mövzusunda doktorant və dissertantların elmi konfransı. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, - 2014.- s.157-166.
2. Əlizadə Ş.N., Beynəlxalq ticarətin tənzimlənməsində sığorta sisteminin rolu // "Heydər Əliyev irsi və Azərbaycan Respublikasının davamlı inkişafı" mövzusunda doktorant və dissertantların elmi-praktiki konfransı. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, - 2015. - s.78-83 .
3. Əlizadə Ş.N., Azərbaycan iqtisadiyyatında sığorta sisteminin yeri: problemlər və perspektivlər // - Bakı: Dövlət idarəçiliyi: Nəzəriyyə və təcrübə jurnalı, - 2015. № 2 (50), - s.231-236.
4. Alizade S.N., The Modern Situation of Insurance System in Azerbaijan // New York: Journal of Microeconomics and Macroeconomics, - 2015. Vol 3, № 2, - pp.30-34.
5. Əlizadə Ş.N., Şirkətlərdə idarəetmə keyfiyyəti və onun təkmilləşdirilməsində dünya təcrübəsi // "Heydər Əliyev ideyaları müasir Azərbaycanın uğurlu inkişaf siyasətinin təməlidir" mövzusunda doktorant və dissertantların elmi-praktiki konfransı. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, - 2016. - s.109-116.
6. Alizade S.N., The role of insurance in the world economy and its effect to macroeconomic indicators // Санкт-Петербург: Евразийский журнал ученых, - 2016. №12 (33), - pp.76-79
7. Əlizadə Ş.N., Azərbaycanda həyat sığortasının əhəmiyyəti və həyat sığortası bazarının inkişaf etdirilməsi yolları // - Bakı: AMEA İqtisadiyyat inistutu. Elmi əsərlər, - 2016. № 1, - s.119-125.





8. Əlizadə Ş.N., Azərbaycanda icbari sığorta və onun sığorta bazarının inkişafında rolu // - Bakı: Journal of Qafqaz University. Economics and Administration, - 2016. vol 4, № 1, - s.57-65.
9. Əlizadə Ş.N., Azərbaycanda sığorta bazarının formalaşması və onun müasir vəziyyətinin təhlili // "Ulu Öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" mövzusunda beynəlxalq elmi konfrans, I hissə. – Bakı: Bakı Slavyan Universiteti, - 2016. - s.290-291.
10. Əlizadə Ş.N, Azərbaycanın sığora şirkətlərində marketinq fəaliyyəti və onun təkmilləşdirilməsi yolları // - Bakı: AMEA İqtisadiyyat inistutu. Elmi əsərlər, - 2017. № 1, - s.237-244.
11. Əlizadə Ş.N., Müasir dövrdə sığorta şirkətlərində ortaya çıxan risklər və onların idarə edilməsi // - Bakı: AMEA. Gənc Tədqiqatçı: elmi-praktiki jurnal, - 2017. III cild, № 2, - s. 271-278.
12. Alizade S.N., Importance of Management Quality of Insurance Companies of Azerbaijan and Providing Its Efficiency // Kyiv: Journal Actual Problems of Economics, - 2020. № 1 (223), - pp.115-120.
13. Əlizadə Ş.N., Turizm sektorunun inkişafında sığortanın rolu // - Bakı: Turizm və qonaqpərvərlik tədqiqatları jurnalı. – 2021. Vol.10, № 1, - s.19-27.
14. Alizade S. N., Agricultural Insurance In Azerbaijan Economy And Its Economic Necessity // XXXVII Международная научно-практическая конференции "Eurasiascience". - Москва: - 2021. – pp.209-210.




Dissertasiyanın müdafiəsi 28 aprel, 2022-ci il tarixində saat $13^{00}$-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.22 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: 16/21 Azadlıq prospekti, AZ 1010, Bakı, Azərbaycan

Dissertasiya ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 28 mart 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.